AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Ofisiant işləyirsiniz?

# Bərbər, yaxud dərzi fəaliyyəti ilə məşğulsunuz və işçiniz yoxdur?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

- Fərdi qaydada **bərbər** fəaliyyəti ilə məşğul olan şəxslər üzrə müəyyən edilmiş sabit vergi məbləği **15 manat**;
- Fərdi qaydada **dərzi** fəaliyyəti ilə məşğul olan şəxslər üzrə müəyyən edilmiş sabit vergi məbləği **10 manat**;
- İaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (**ofisiant**) üzrə müəyyən edilmiş sabit vergi məbləği **10 manat** təşkil edir.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Əlavə olaraq bilməlisiniz ki...

Yuxarıda qeyd edilən fəaliyyət növləri üzrə müəyyənləşdirilmiş sabit vergi məbləğlərinə fəaliyyət göstərdiyiniz ərazi üzrə əmsal tətbiq etməklə ödəməli olduğunuz vergi məbləğini müəyyən etməlisiniz:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) **2 əmsal**;
- Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində **1,5 əmsal**;
- Abşeron rayonunun qəsəbə və kəndlərində (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində **1 əmsal**;
- digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) **0,5 əmsal**.

## Əlavə olaraq...

- 2019-cu ilin yanvarın 1-dən etibarən 1 il müddətində hər ay üzrə minimum aylıq əməkhaqqının **20 faiz** məbləğinin:
  - Bakı şəhərində 100 faizi;
  - Sumqayıt və Gəncə şəhərlərində 90 faizi;
  - respublika tabeli digər şəhərlərdə 80 faizi;
  - rayon mərkəzlərində, digər şəhər və qəsəbələrdə 60 faizi;
  - kənd yerlərində 50 faizi miqdarında **məcburi dövlət sosial sığorta haqqı** hesablamalı və bu barədə rüb başa çatdıqdan sonra növbəti **ayın 20-dən gec olmayaraq** vergi orqanına hesabat təqdim etməli;
- **Məcburi dövlət sosial sığorta haqqını** hər ay üzrə növbəti **ayın 15-dən gec olmayaraq** tam məbləğdə yalnız nağdsız hesablaşma qaydasında ödəməlisiniz.

Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda, baş verə biləcək maliyyə itkiləriniz və vergi məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.